**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**Чимназ Гафар гызы Вердиева**

# ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ ПОДГОТОВКИ К ПРОФЕССИИ УЧИТЕЛЯ В СОВРЕМЕННЫХ УСЛОВИЯХ

6104.01 – Педагогическая психология

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по психологии

**Баку – 2016**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**ÇIMNAZ QAFAR QIZI VERDIYEVA**

# MÜASİR ŞƏRAİTDƏ MÜƏLLİM PEŞƏSİNƏ HAZIRLIĞIN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

6104.01- Pedaqoji psixologiya

Psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2016**

İş Bakı Dövlət Universitetinin Psixologiya kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: AMEA-nın müxbir üzvü,
psixologiya üzrə elmlər doktoru,
professor **Bəxtiyar Həmzə oğlu Əliyev**

Rəsmi opponentlər: psixologiya üzrə elmlər doktoru
**İsfəndiyar Məmmədhüseyn oğlu Novruzlu**

psixologiya üzrə fəlsəfə doktoru
**Kəmalə Bahəzər qızı Salamova**

Aparıcı təşkilat: **Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Yaş və pedaqoji psixologiya" kafedrası**

Müdafiə "_27__" "__02_______" 2016-cı il saat "___" da Bakı Dövlət Universitetinin nəzdində psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD.02.014 Dissertasiya şurasının iclasında olacaqdır.

Ünvan: AZ 1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi 23, II korpus, auditoriya 901

Dissertasiya ilə BDU-nun elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____" "_________" 2016 - cı ildə göndərilib.

FD.02.014 Dissertasiya psixologiya üzrə fəlsəfə doktoru,

şurasının elmi katibi dosent **Rəşid Vəkil oğlu Cabbarov**

Sifariş N 21; tiraj 100
“Ecoprint” nəşriyyatının mətbəəsində
çap olunmuşdur

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. Azərbaycanda təhsilin dünya standartlarına uyğun səviyyədə yenidən qurulması, inkişaf etmiş ölkələrin təhsil sisteminə inteqrasiyası ümummilli lider Heydər Əliyevin təsdiq etdiyi təhsil sahəsindəki islahat proqramına söykənir.Uğurla davam etdirilən təhsil islahatlarında əsas yerlərdən birini rəqabət qabiliyyətli kadr hazırlığını həyata keçirən və müasir tələblərə cavab verən peşəkar müəllim yetişdirməkdir.

Heç də sirr deyildir ki, bu gün pedaqoji profilli ali və orta ixtisas təhsil müəssisələrində aparılan müəllim hazırlığının məzmununda uzun onilliklərdir ki, əsaslı keyfiyyət dəyişiklikləri baş verməmişdir. Tədris plan və proqramları elə qurulmuşdur ki, tələbələr daha çox nəzəri materiallarla yüklənir, təcrübi bacarıq və vərdişlərin aşılanmasına lazımi diqqət yetirilmir, müəllim peşəsinə hazırlıq müasir tələblərə cavab vermir. Çoxsaylı faktlar göstərir ki, diplom alıb müəllimliyə başlayan məzunlar pedaqoji-psixoloji məsələlərə, yeni tədris texnologiyalarına və metodlara, təlim fəaliyyəti,onun təşkili mahiyyəti haqqında zəruri biliklərə malik olmurlar.

Hər bir müəllim təhsil sisteminin mürəkkəbliyini və pedaqoji təsirlərin mexanizmlərini, inkişaf qanunauyğunluqlarını bilməklə təhsilin başlıca vəzifəsini - şagird (tələbə) şəxsiyyətinin hərtərəfli təşəkkül və formalaşmasını təmin etməyə çalışmalıdır. Bu gün pedaqoji fəaliyyətə verilən tələblərin dəyişilməsi, təhsilin məzmun və formasının yeniləşməsi, dərsin yaradıcı və düşündürücü təşkili, həmçinin müəllim hazırlığı kimi məsələlər qloballaşan təhsildə ənənəlikdən fərqli mahiyyət kəsb etməkdədir.

Müasir şəraitdə ali pedaqoji təhsilin qarşısında dayanan əsas məsələlərdən biri də müxtəlif situasiyalarda işləyə bilən, yeni təlim və tərbiyə metodlarını bacarıqla tətbiq edən geniş dünyagörüşə, yüksək intellektə, yaradıcı və yaradıcı qabiliyyətlərə malik müəllim yetişdirməkdir. Çünki bütün sosial-iqtisadi, ictimai-mədəni sahələr üçün kadr hazırlayan müəllim cəmiyyətin ziyalı təbəqəsinin böyük hissəsini təşkil edir.

Təhsildə kurikulum şəxsiyyətyönümlülük, inteqrativlik, universallıq, varislik, çeviklik və digər vacib prinsiplərə əsaslanmaqla müəllim şəxsiyyətinin hərtətəfli inkişafında mühüm əhəmiyyət kəsb edir.

Yeni təhsil strategiyası baxımından müəllim peşəsinə hazırlığa yanaşma müəllim üçün zəruri olan keyfiyyətlərin formalaşdırılmasının psixoloji xüsusiyyətlərini,mexanizmlərini,müəllim hazırlığı modelinin nəzəri metodoloji əsaslarını müəyyənləşdirməyi zəruri edir.

Müəllimin psixoloji hazırlığına verilən yeni tələbləri, müasir yaradıcı müəllim hazırlıgı modelinin olmamasını, problemin kifayət qədər tədqiq edilmədiyini və onun xüsusi aktuallıq kəsb etməsini nəzərə alaraq, tədqiqatın mövzusunun "Müasir şəraitdə müəllim peşəsinə hazırlığın psixoloji xüsusiyyətləri" olmasını məqsədəuyğun hesab etmişik.

**Mövzunun işlənmə səviyyəsi.** Müəllim peşəsinə hazırlığın müxtəlif tərəflərinin araşdırılmasına çoxsaylı tədqiqat işləri həsr edilmişdir. Bu məsələnin öyrənilməsi psixoloqların da diqqət mərkəzndə olmuşdur.

Ümumpsixoloji aspektdə müəllim peşəsinə hazırlığa həsr olunmuş tədqiqatlarda daha çox müəllim şəxsiyyətinin formalaşması, müxtəlif akademik qabiliyyətlərinin inkişaf etdirilməsi, müəllimin idarəetmə qabiliyyətlərinin istiqamətləri, o cümlədən onun psixoloji prosesləri diqqət mərkəzinə gətirilmişdir (L.S.Vıqotski, V.V.Davıdov, O.B.Ketova, L.İ.Bojoviç, İ.M.Lomonosov,Ə.S.Bayramov,Ə.Ə.Əlizadə, B.H.Əliyev, R.H.Qədirova, K.R.Əliyeva, R.İ.İbrahimbəyova, R.İ.Əliyev, C.Q.Alıyev, M.V.Vəliyev, M.M.Vəliyeva, C.B.Kuliyeva və b.). Təsadüfi deyildir ki, müəllim peşəsi və ona verilən tələblər müxtəlif dövrlərdə və müxtəlif tədqiqatçılar (L.Vıqotski, J.Piaje, C.Bruner, E.Skinner və b.)tərəfindən araşdırılmış, bu tədqiqatlarda müəllim pedaqoji fəaliyyətin mərkəzi elementi hesab edilmişdir.

Psixopedaqoji aspektdə müəllim peşəsinə hazırlığın psixoloji xüsusiyyətləri azərbaycanlı tədqiqatçıların (M.Mehdizadənin, Ə.Seyidovun, B.Əliyevin, Ə.Əlizadənin, M.Həmzəyevin, K.Əliyevanın, H.Əlizadənin, N.Muxtarovanın, R.Cabbarovun, R.Qədirovanın, R.Əliyevin, İ.Novruzlunun Q.Əzimovun və b.) əsərlərində geniş şəkildə öz əksini tapmışdır. Bu tədqiqatlarda müəllim hazırlığı ayrıca tədqiqat obyektinə çevrilməsə də, problemin öyrənilməsinin zəruriliyi qeyd edilmişdir. Bu baxımdan müəllim peşəsinə hazırlığın psixoloji xüsusiyyətlərinin sistemli tədqiqinə ciddi ehtiyac duyulur.

**Tədqiqatın obyekti** təlim prosesində tələbələrin müəllim peşəsinə hazırlanmasıdir.

**Tədqiqatın predmetini** müasir şəraitdə müəllim peşəsinə hazırlığın psixoloji xüsusiyyətlərinin öyrənilməsi təşkil edir.

**Tədqiqatın məqsədi** müəllim peşəsinə hazırlığın inkişaf dinamikasının optimal istiqamətlərini aşkara çıxarmaq, müəllim hazırlığının psixopedaqoji məsələlərini müəyyənləşdirmək və yeni tipli müəllim obrazının psixoloji cəhətlərini ayırd etməkdən ibarətdir.

**Tədqiqatın əsas fərziyyəsi.** Təlim prosesində müəllim peşəsinə hazırlıq səviyyəsi tələbələrin müxtəlif kurslardakı peşə motivasiyasının xarakteri ilə yanaşı, həm də peşə hazırlığının funksional, bələdləşmə, əməliyyat və

refleksiv - yaradıcı səviyyələri ilə şərtlənir.

**Tədqiqatın vəzifələri.** Tədqiqatın fərziyyə və məqsədi əsasında aşağıdakı vəzifələrin həlli zəruri hesab edilmişdir:

1. Psixoloji-pedaqoji ədəbiyyatı təhlil edərək, problemin tədqiqi vəziyyətini öyrənmək.
2. Müəllim peşəsinə hazırlığın strukturunu və onun inkişaf səviyyələrini araşdırmaq.
3. Tələbələrin müəllim peşəsinə hazırlığının psixoloji xüsusiyyətlərinin səviyyəsini müəyyənləşdirmək.
4. Tələbələrin peşəyə hazırlığının inkişaf dinamikasını və onun optimal yollarını aşkar etmək.
5. Tələbələrin müəllim peşəsinə münasibətini öyrənmək üçün peşəyə yiyələnmə motivasiyasının səviyyələrini müəyyən etmək.
6. Peşəyə hazırlığın formalarına istiqamətlənmiş psixoloji-pedaqoji metodları, vasitələri və texnologiyaları işləyib hazırlamaq.
7. Müəllim peşəsinə hazırlığın strukturunda tələbələrin yaradıcı bacarıqlarının formalaşdırılması yollarını tədqiq etmək.

**Tədqiqatın metodoloji əsasları və metodları.** Tədqiqatın əsasını psixologiyada sistemli yanaşmanın işlənilməsi ilə bağlı konsepsiya (P.K.Anokin, B.Q.Afanasyev, N.V.Kuzmina, B.F.Lomov, V.D.Şadrikov və b.); fəaliyyətin ümumpsixoloji nəzəriyyələri (A.N.Leontyev, S.L.Rubinşteyn); şəxsiyyətin peşəyə istiqamətlənməsinin nəzəriyyələri (E.A. Klimov, N.V.Kuzmuna, K.K.Platonov) təşkil edir.

Tədqiqatda anket sorğularından, ekspert qiymətləri metodundan, “Adsız sorğu”, V.E.Milmanın"Şəxsiyyətin motivasiya profilinin müəyyən edilməsi”, E.A.Klimovun “Diferensial diaqnostik sorğu” və Y.M.Orlovun “Uğura tələbat sorğusu” metodikalardan istifadə edilmişdir.

Tədqiqat Bakı sosial-pedaqoji və Bakı humanitar kollecdə, Azərbaycan Müəllimlər İnstitutunda, Azərbaycan Dövlət Pedaqoji Universitetində, Bakı Qızlar Universitetində, Gəncə və Quba Müəllimlər İnstitutunda aparılmışdır. Tədqiqatda 400-dən çox tələbə, müəllim və ixtisasartırma kurslarının dinləyicisi iştrak etmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Müasir şəraitdə müəllim peşəsinə hazırlığın psixoloji xüsusiyyətləri və motivasiya istiqamətləri müəyyənləşdirilmiş, problemə həsr edilmiş tədqiqatlar təhlil olunaraq sistemləşdirilmiş, tələbələrin müəllim peşəsinə hazırlığın formalaşma şərtləri, o cümlədən, təlim fəaliyyətində yaradıcı mühitin yaradılması, marağın təşəbbüskarlığa və yeniliyə tətbiqi imkanları öyrənilmişdir.

Bununla yanaşı bu işdə:

- Alınmış nəticələrin təhlili və ümumiləşdirilməsi müəllim peşəsinə

hazırlığın səviyyəsinin bu hazırlığın struktur komponentlərilə şərtləndiyini müəyyənləşdirməyə imkan vermişdir (qiymət-motivasiya, koqnitiv-qnostik, emosional-iradi, funksional-əməliyyat).

-Təlim prosesində tələbələrin peşə hazırlığının bələdləşmə, əməliyyat, funksional və refleksiv-yaradıcı inkişaf səviyyələri və onların formalaşması mərhələləri öyrənilmişdir. Həmçinin tələbələrin gələcək pedaqoji fəaliyyətə hazırlığına əhəmiyyətli təsir edən müsbət keyfiyyətlər aşkar edilmiş, onların möhkəmləndirilməsinin psixoloji mexanizmləri müəyyən edilmişdir.

-Müəllim peşəsinə hazırlıqda mənfi keyfiyyətlərin (motivasiyanın aşağı səviyyəsi, aşağı intellekt, passivlik, kommunikativ və təşkilati qabiliyyətlərin aşağı səviyyəsi, başqalarından mənfi münasibətin gözlənilməsi, özünüqəbuletmənin yüksək səviyyəsi və s.) təzahür xüsusiyyətləri aydınlaşdırılmışdır.

**Müdafiəyə təqdim olunan əsas müddəalar:**

1. Tələbələrin müəllim peşəsinə hazırlığı dinamik proses olub mürəkkəb struktura (qiymət-motivasiya, koqnitiv-qnostik, emosional-iradi, funksional-əməliyyat) və çoxpilləli ardıcıl inkişaf səviyyəsinə malikdir. İnkişaf səviyyəsinin hər bir mərhələsi müəllim peşəsinə hazırlığın göstərici və meyarı kimi qiymətləndirilməlidir.
2. Təlim prosesində tələbələrin müəllim peşəsinə psixoloji hazırlığı pozitiv keyfiyyət və kəmiyyət dəyişikliklərinə gətirib çıxarır. Nəticədə bir inkişaf səviyyəsindən digər inkişaf səviyyəsinə keçidin dinamikasında irəliləyiş artır ki, bu da onun komponentləri arasındakı balansla müəyyənləşir, müxtəlif çətinliklərə və məzmuna malik təlim və peşə vəzifələrinin səmərəli həlli təmin olunur.
3. Təlim prosesində interaktiv forma və evrestik metodlardan istifadə, xüsusi təşkil edilmiş təhsil mühiti peşəyə hazırlığın adekvatlığını və səmərəliliyini təmin edir.
4. Peşəyə hazırlığın səviyyəsi qazanılmış nəzəri biliklərin real praktik fəaliyyətdə tətbiqi və fərdi peşə şəraitində peşə vəzifələrinin gerçəkləşdirilməsi ilə bağlı şəxsi proqramın hazırlanması bacarığından asılıdır.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Tədqiqat işində əldə olunan nəticələrdən müəllim hazırlığı ilə bağlı layihələrin hazırlanmasında, təşkilində və bu sahədə mövcud olan nəzəri müddəaların zənginləşdirilməsində, gənc müəllimlər üçün elmi-metodik tövsiyələrin hazırlanmasında pedaqoji fəaliyyətin müxtəlif aspektlərini araşdırmaqla məşğul olan elmi-tədqiqat müəssisələrinin mütəxəssislərinin tədqiqat işində istifadə oluna bilər.

**Tədqiqatın praktik əhəmiyyəti.** Tədqiqatdan əldə edilən nəticələrdən pedaqoji təmayüllü kolleclərdə, ali təhsil müəssisələrində tələbələrin müəllim peşəsinə hazırlanmasına dair tədris proqramlarında, habelə respub-

likamızda müəllim kadrlarının hazırlıq səviyyəsinin yüksəldilməsində istifadə oluna bilər.

Tədqiqat işinin nəticələri tələbələrin yaradıcı bacarıqlarının inkişaf etdirilməsində, metodik tövsiyələrin işlənilməsində istifadə oluna bilər. Dissertasiyada irəli sürülən təkliflər yaradıcı potensiala malik yüksək peşə hazırlıqlı müəllim kadrlarının hazırlanmasında mühüm rol oynaya bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Dissertasiyanın əsas müddəaları və nəticələri müxtəlif elmi-praktiki konfranslarda məruzə edilmiş, onun əsas məzmunu məqalə və məruzə tezisləri şəklində çap olunmuş elmi əsərlərdə öz əksini tapmış, əldə edilmiş nəticələr elmi seminarlarda məruzə edilmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, üç fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın məqsədi və vəzifələri, obyekti, predmeti, fərziyyəsi, elmi yeniliyi, müdafiəyə təqdim olunan əsas müddəalar nəzəri və praktik əhəmiyyəti şərh olunur.

Dissertasiyanın **"Müəllim peşəsinə hazırlıq problemi və onun tədqiqinin əsas istiqamətləri"** adlanan birinci fəsli üç yarımfəsildən ibarətdir. **"Pedaqoji fəaliyyətin psixoloji xarakteristikası"** adlanan birinci yarımfəsildə pedaqoji fəaliyyətin psixoloji cəhətləri araşdırılır, bu sahədə mövcud tədqiqatlar sistemləşdirilir, pedaqoji fəaliyyətin spesifik cəhətləri açılır. Qeyd olunur ki, pedaqoji fəaliyyət, hər şeydən əvvəl, fəaliyyətin səmərəliliyini təmin edən motivasiyanın ümumi psixoloji qanunauyğunluqları ilə şərtlənir. Həmçinin, mövcud ədəbiyyatın təhlili nəticəsində pedaqoji fəaliyyətin səmərəliliyinin səviyyəsi ilə müəllimin peşə fəaliyyətinin xarakteri arasında müəyyən asılılıgın oldugu müəyyənləşdirilmişdir.

Pedaqoji fəaliyyətin praktik tərəfini öyrənən tədqiqatçılar müəllim hazırlığında əsas diqqəti müəllim şəxsiyyətinin refleksiv cəhətlərinə və motivasiyanın təminatına yönəldirlər. Tədqiqatlar göstərir ki, motivasiyanın psixoloji strukturunda yaradıcı tələbatların mövcudluğu pedaqoqun fəaliyyətinin nəticəsindən asılıdır. (A. Derkaç və b.).

**"Peşəyə hazırlıq anlayışının psixoloji mahiyyəti və onun tədqiqinin vəziyyəti"** adlı ikinci yarımfəsildə peşəyə hazırlığın müxtəlif cəhətləri diqqət mərkəzinə gətirilmişdir. Peşəyə hazırlıq istənilən mürəkkəb fəaliyyətin cəhdlə yerinə yetirilməsinin ilkin, fundamental və əsas şərtlərindən biridir. Öz mahiyyətinə görə, hazırlıq müvafiq fəaliyyət qabiliyyətlərinin səfərbəredici səviyyəsini ifadə edir.

Peşə fəaliyyətinə hazırlıq müəyyən davranışın qurulmasını, ustanovkanı, bilik, bacarıq və vərdişləri, iradi və intellektual keyfiyyətləri, hissləri, motivləri, qarşılıqlı münasibətləri, baxışları, həmçinin inandırmanı özünə daxil edən şəxsiyyətin məqsədəyönəlmiş ifadəsidir. Belə hazırlıq əxlaqi-psixoloji və peşə hazırlığının gedişində peşə xüsusiyyətləri ilə bağlı tələblər şəxsiyyətin hərtərəfli inkişafının nəticələri sayılır. Psixoloqlar peşə hazırlığının strukturuna şəxsiyyətin kompleks sosial keyfiyyətlərini, əxlaqi, psixoloji və peşə komponentlərinin birliyini daxil edirlər.

Bununla yanaşı bu yarımfəsildə həm xarici ölkərlərin, həm də Azərbaycan psixoloqlarının problemlə bağlı fikirləri təhlil edilmiş, peşəyə hazırlığın əsas komponentləri sistemləşdirilmişdir.

I fəslin üçüncü yarımfəsli **"Peşə fəaliyyətinə hazırlığın inkişaf səviyyələri və onun psixoloji xüsusiyyətləri"**nin təhlilinə həsr olunmuşdur. Burada qeyd edilir ki, peşə hazırlığının strukturuna aşağıdakılar daxildir:

- seçilən peşə fəaliyyətinə müsbət münasibət-motivasiya-qiymət komponenti;
- zəruri biliklər - koqnitiv komponent;
- fəaliyyətə adekvat tələblər, peşənin xarakterik xüsusiyyətləri, qabiliyyətlər, qavrama, təfəkkür, emosional və iradi proseslər-əxlaqi komponent və emosional-iradi davamlılıq;
- kommunikativ komponent.

Şəxsiyyətin peşə fəaliyyətinə hazırlığında yuxarıda göstərilən dörd mühüm komponent gələcək mütəxəssisə peşə seçmədə yüksək nəticələr əldə etməyə imkan verir ki, onlar peşə fəaliyyətinə hazırlığın meyarları sayıla bilərlər. Bu yarımfəsildə həmçinin tələbələr arasında sorğu aparlmış və alınan nəticələrin təhlili kommuniikativ komponentlərin inkişaf səviyyəsinin sistemini müəyyən etməyə, onları qruplaşdırmağa imkan vermişdir. Apardığımız psixoloji müşahidə və sorğular nəticəsində məlum olmuşdur ki, kommunikativ komponent müəllim pedaqoqlar və müəllim-psixoloqlar üçün vacib keyfiyyətlərdəndir. Tələbə gənclər arasında apardığımız sorğular və ondan alınan nəticələrin təhlili kommunikativ komponentlərin inkişaf səviyyəsinin sistemini müəyyən etməyə və onları qruplaşdırmağa imkan vermişdir. Tədqiqat kommunikativ komponentlərin inkişaf səviyyəsinin dörd səviyyəsini müəyyən etməyə imkan verdi: birinci səviyyə (ən aşağı); ikinci səviyyə (orta); üçüncü səviyyə (yüksək); dördüncü səviyyə (ən yüksək). Tədqiq olunanlar müəllimin pedaqoji fəaliyyətində vacib peşə keyfiyyətləri sırasında emosional-iradi davamlığın adını göstərməmişlər. Lakin nəzəri materialların əksəriyyəti, aparılan eksperimentlər göstərir ki, fəaliyyətin ümumi müvəffəqiyyəti özünüqiymətləndirmənin dəyişməsi ilə mənfi korrelyasiyaya malikdir.

Dissetasiyanın **"Müəllim hazırlığında peşə keyfiyyətlərinin və müəllim-tələbə münasibətlərinin xüsusiyyətləri"** adlanan II fəsli üç yarımfəsli əhatə edir. II fəslin "**Peşə hazırlığı prosesində müəllimin peşə keyfiyyətlərinə verilən psixoloji tələblər"** adlanan birinci yarımfəslində müəllim hazırlığı sistemində bir-biri ilə qarşılıqlı əlaqədə olan beş mərhələ göstərilmişdir:

1.Peşə baxımından müəllimin özünütəyini (öz gələcək müqəddəratını təyin etməsi**).**

2.Özünütəşkil.

3.Elmi-pedaqoji təşəkkül.

4.Elmi-pedaqoji cəhətdən özünütəkmilləşdirmə.

5.İnnovasiya-pedaqoji cəhətdən özünügerçəkləşdirmə (subyektin daxili imkanlarının həyata keçirilməsi, özünütəsdiq).

Apardığımız tədqiqat göstərdi ki, müəllim peşəsinə psixoloji hazırlığın yüksək səviyyəsi ali təhsil müəssisələrinin məzunlarında bütün dörd struktur komponentlərin yüksək inkişaf səviyyəsinin göstəricilərinə müvafiq əlamətlərin təzahüründə özünü göstərir: motivasiya, koqnitiv, kommunikativ, emosinal-iradi davamlılıq. Bu struktur komponentlərin həır biri müəllim peşəsinə hazırlıqda zəruri olan komponentlərdir.

Bütün bunlarla yanaşı bu yarımfəsildə A.İ.Şerbakov, N.V.Kuzmina, E.A.Klimov, L.V.Kandıboviç, M.Ə.Həmzəyev, B.H.Əliyev və başqaları tərəfindən müəllimin peşə keyfiyyətlərinə verilən tələblər təhlil edilmiş, ümumiləşdirmələr aparılmış, müəllim fəaliyyətinin nəzəri olaraq ümumiləşdirilmiş pedaqoji-psixoloji modeli yaradılmışdır. Burada göstərilir ki, müəllim peşəsinə hazırlıqda biliklərin keyfiyyəti kifayər qədər yüksək olmalıdır ki, gələcək müəllim peşə vəzifəsini yerinə yetirərkən standart situasiyaya kifayət dərəcədə sərbəst bələdləşə bilsin. Peşəyə hazırlığın yüksək səviyyəsi intellektin yüksək ( 90- dan artıq) koeffisientini, ümumi fikri və yaradıcı, hadisələri qabaqcadan görmə qabiliyyətlərinin olmasını tələb edir. Peşə fəaliyyətinə psixoloji hazırlığın səviyyəsinə malik olan mütəxəssislər kommunikativ, təşkilatçılıq qabiliyyətlərinin yüksək səviyyəsinə yiyələnməlidirlər ki, bu da onların müəyyən situasiyaya tez bələdləşmələrinə imkan verir. Bununla yanaşı, həm də yüksək səviyyəli peşə hazırlığında emosional davamlılığa, adekvat özünüqiymətləndirməyə, öz potensiallarını inkişaf etdirməyə inamlı olmalıdırlar.

II fəslin ikinci yarımfəslində **"Gələcək müəllim-psixoloqların peşə fəaliyyətinə hazırlığının strukturunda yaradıcı bacarıqların aktivləşdirilməsi"** yolları araşdırılmışdır.Apardığımız tədqiqat göstərdi ki, müxtəlif kurslarda təhsil alan tələbələrin (245 nəfər) peşə fəaliyyətinə hazırlığının səviyyəsinin yüksəldilməsi məqsədilə keçirilən sorğularda sınanılanların

14% yaradıcılıq potensiallarını nümayiş etdirmişlər. Sınanılanların 70% yaradıcı fəaliyyətin aşağı göstəricilərinə malik olmuşlar. Onların yaradıcılığının təzahüründə, habelə peşə fəaliyyətinin motivasiyasında, şəxsiyyət və fəaliyyətin "koqnitiv" və "əməliyyat" sferasında müxtəlif maneələr qeydə alınmışdır. Peşə fəaliyyətində tələbə psixoloqların və gənc mütəxəssislərin psixoloji hazırlığın "refleksiv-yaradıcı" səviyyəsində əhəmiyyətli əlaqələr qeydə alınmışdır. Daha əhəmiyyətli əlaqələr "bələdləşmə" və "əməliyyat" səviyyəsində özünü göstərmişdir.

II fəslin üçüncü yarımfəsli **"Müəllim hazırlığında müəllim-tələbə münasibətlərinin psixoloji xüsusiyyətləri"** adlanır. Müəllimlərlə aparılmış sorgunun nəticələrinin müqayisəli təhlili tələbələri iki qrupa ayırmaga imkanı vermişdir. Müəyyən edilmişdir ki, kollecdə dərs deyən müəllimlərin 42% avtoritar, 58% isə demokratik müəllim kimi səciyyələndirilmişlər. Aparılmış tədqiqatlar göstərir ki, "zəif" və "güclü" tələbələr yalnız intellektin səviyyəsinə görə deyil, həm də təlim fəaliyyətinin motivasiyasının strukturunun səviyyəsinə görə fərqləndirilir.

Eksperimental materialların təhlili göstərdi ki, müəllim-tələbə əməkdaşlığının yüksək səviyyəsində göstərici yaxşı oxuyan-intizamlı tələbələrdə 28%, yaxşı oxuyan-intizamsız tələbələrdə 37%, pis oxuyan-intizamlı tələbələrdə 27%, pis oxuyan-intizamsız tələbələrdə isə 8% olmuşdur.

Dissertasiya işinin **"Müəllim peşəsinə hazırlıq probleminin eksperimental tədqiqi"** adlanan üçüncü fəsli iki yarımfəsildən ibarətdir.Üçüncü fəslin **"Pedaqoji fəaliyyətə hazırlığın formalaşdırılmasının yolları və onun eksperimental tədqiqi"** adlanan birinci yarımfəslində müəllim-psixoloqun peşə fəaliyyətinin xüsusiyyətlərinin öyrənilməsi məqsədi ilə empirik tədqiqatın gedişində ali təhsil müəssisələrində tələbə-psixoloqların (abituriyentlərin, I, III, IV kurs tələbələrinin), məktəblərdə işləyən ali kateqoriyalı müəllimlərin, ixtisasartırma kurslarına gələn dinləyici psixoloqların diaqnostikası nəticəsində alınan nəticələr şərh edilmişdir. Tədqiqat bir neçə mərhələdə aparılmış və tədqiqata istehsalat təcrübəsində çalışan və sınanılan müəllimlərdən ibarət ekspert qrupu cəlb edilmişdir. Akademik uğurların təhlili gedişində peşə fəaliyyətinə dair nəzəri biliklərin qiyməti ora daxil edilmişdir. Tədqiqatda 127 nəfər abituriyent iştirak etmişdir.

Tədqiqatımızın ikinci mərhələsi tələbə psixoloqların peşə istiqamətinin qiymətləndirilməsinə həsr edilmişdir. "Diferensial diaqnostik sorğu"nun tətbiqi ilə peşə sferasında aparıcı tiplər müəyyən edilmişdir. Testin nəticəsi göstərmişdir ki, bütün sınanılanlar arasında "insan-insan" tipli peşə prioritet sayılır. I kurs tələbə psixoloqlar arasında yalnız 42% tələbə bu peşənin "insan-insan" tipli peşə sferasında maraq və meyllərini aydın ifadə etmələri ilə fərqlənmişlər. Bu göstərici ali təhsil müəssisələrinin məzunları arasında

75%, dinləyici psixoloqlar arasında isə 82,5% olmuşdur.




*Şək. 3.1. "İnsan-insan" tipli peşə sferasında sınanılanların maraq və meyllərinin göstəriciləri (%-lə ifadəsi)*

Məlum olmuşdur ki, III kurs tələbə psixoloqların praktik təcrübəyə psixoloji hazırlığı biliklərin mənimsənilməsinin və idraki proseslərin psixoloji qanunauyğunluqlarının, habelə pedaqoji psixologiya üzrə praktik məşğələlərdə dərsin psixoloji təhlilinin aparılması və müxtəlif fənlərin tədrisi metodikasının öyrənilməsi ilə bağlıdır. Pedaqoji təcrübənin gedişində tələbələrin şəxsiyyətinin psixoloji keyfiyyətlərinə və pedaqoji fəaliyyətin hazırlıq səviyyəsinə ekspert qiymətləri verilmişdir.

Ekspert qiymətlərin nəticələrinə görə, III kursda 56 nəfər (16%), IV kursda 72 nəfər tələbədə (18%) pedaqoji fəaliyyətə hazırlığın yüksək səviyyəsi; III kursda 120 nəfər (30%), IV kursda 152 nəfər (38%) tələbədə pedaqoji fəaliyyətə hazırlığın orta səviyyəsi, III kursda 164 nəfər (41%), IV kursda isə 160 nəfər (40%) tələbədə isə pedaqoji fəaliyyətə hazırlığın aşağı səviyyəsi qeydə alınmışdır. III kursda 52 nəfər (13%), IV kursda isə 16 nəfər (4%) tələbədə pedaqoji fəaliyyətə hazırlığın mənfi səviyyəsi qeydə alınmışdır.

Ekspertlərə hər bir tələbə-psixoloqun pedaqoji fəaliyyətinin hazırlığına inteqral qiymət vermək təklif olunmuşdur. Tədqiqatda ekspert qiymətlər şəxsiyyət keyfiyyətləri üzrə aparılmışdır.

Cədvəl 3.1.

Ekspert qiymətlərin nəticəsinə görə hazırlığın müxtəlif səviyyələrinə aid olan sınanılanların say göstəricisi

| Hazırlığın səviyyəsi | Sınanılanların sayı (nəfərlə) | | Sınanılanların sayı (%-lə) | |
|---|---|---|---|---|
| | III kurs | IV kurs | III kurs | IV kurs |
| Yüksək | 56 | 72 | 16 | 18 |
| Orta | 120 | 152 | 30 | 38 |

| | | | | |
|---|---|---|---|---|
| Aşağı | 164 | 160 | 41 | 40 |
| Mənfi | 52 | 16 | 13 | 4 |




*Şək. 3.2. Hazırlığın müxtəlif səviyyələrinin göstəriciləri (%-lə)*

III fəslin **"Tələbələrin peşə hazırlığında yaradıcı bacarıqların formalaşdırılması yolları"** adlanan ikinci yarımfəsildə yaradıcı bacarıqların aktivləşdirilməsi məqsədi ilə tələbələrin peşə hazırlığı öyrənilmişdir. Əldə edilmiş nəticələrin təhlili əsasında tələbələrin peşə fəaliyyətinə psixoloji hazırlığının “bələdləşmə”, “əməliyyat”, “funksional” və “refleksiv-yaradıcı” səviyyələri müəyyən edilmişdir. Bələdləşmə səviyyəsində psixoloji hazırlıq tələbə-psixoloqların peşə oriyentasiyasının səviyyəsi ilə xarakterizə olunur. Tələbələrin seçdiyi peşəyə maraq və meyli, yiyələndiyi zəruri keyfiyyətlər, pozitiv motivasiya peşə fəaliyyətinin tələblərinin təminatına, onun psixoloji məzmununun mənimsənilməsinə yönəldilmişdir.

Cədvəl 3.2.

Tələbə psixoloqların peşə fəaliyyətinə hazırlığının səviyyələri (%-lə)

| Səviyyələr | I kurs tələbələri | III kurs tələbələri | IV kurs tələbələri | Dinləyici psixoloqlar |
|---|---|---|---|---|
| Bələdləşmə | 89 | 14 | 5 | 5 |
| Əməliyyat | 11 | 47 | 23 | 15 |
| Funksional | 0 | 39 | 61 | 59 |
| Refleksiv-yaradıcı | 0 | 0 | 11 | 21 |

Eksperimental işin aparılması üçün tərəfimizdən eksperimental və kontrol qruplar yaradılmışdır. Hər bir qrupda 25 nəfər olmaqla tələbələr növbəti peşə fəaliyyətində peşəyə hazırlığının müxtəlif səviyyələrini

nümayiş etdirmişlər.

Cədvəl 3.3.

Eksperimental və kontrol qruplarda tələbə psixoloqların peşə fəaliyyətinə hazırlıq səviyyəsi (%-lə ifadəsi)

| Peşəyə hazırlığın səviyyələri | Eksperimental qrup | Konrtol qrup |
|---|---|---|
| Bələdləşmə | 8 | 12 |
| Əməliyyat | 68 | 60 |
| Funksional | 24 | 28 |
| Refleksiv-yaradıcı | 0 | 0 |

Cədvəl 3.3-dən göründüyü kimi, eksperimental qrupda tələbə psixoloqların peşə fəaliyyətinə hazırlığı "bələdləşmə" səviyyəsində 8%, kontrol qrupda isə 12% qeydə alınmışdır. Eksperimental qrupda tələbə psixoloqların peşə fəaliyyətinə hazırlığı "əməliyyat" səviyyəsində ekspertlər tərəfindən 68%, kontrol qrupda isə 60% qeydə alınmışdır. Eksperimental qrupda tələbə psixoloqların peşə fəaliyyətinə hazırlığı "funksional" səviyyəsində ekspertlər tərəfindən 24%, kontrol qrupda isə 28% qeydə alınmışdır. İstər eksperimental, istərsə də kontrol qruplarda tələbə psixoloqların peşə fəaliyyətinə hazırlığının "refleksiv-yaradıcı" səviyyəsində heç bir nəticə alınmadığından bu göstərici ekspertlər tərəfindən aşağı qiymətləndirilmişdir. Psixoloji və pedaqoji şərtlərin kompleks şəkildə reallaşmasında, inkişafetdirici texnologiyaların həyata keçirilməsində eksperimental və kontrol qruplarda tələbə psixoloqların yaradıcı bacarıqlarının aktivləşdirilməsi məqsədi ilə onlarla yenidən anket sorğuları aparılmışdır.Nəticələr cədvəl 3.4.-də öz əksini tapmışdır.

Cədvəl 3.4.

Eksperimental və kontrol qruplarda gələcək mütəxəssislərin-müəllim psixoloqların peşə fəaliyyətinə hazırlığının göstəricilərinin dinamikasının müqayisəli təhlili

| Peşəyə hazırlığın səviyyələri | Eksperimental qrupda eksperimentdən əvvəl | Eksperimental qrupda eksperimentdən sonra | Kontrol qrupda eksperimentdən əvvəl | Kontrol qrupda eksperimentdən sonra |
|---|---|---|---|---|
| Bələdləşmə | 8 | 0 | 12 | 2 |
| Əməliyyat | 68 | 0 | 60 | 32 |
| Funksional | 24 | 58 | 28 | 54 |

| | | | | |
|---|---|---|---|---|
| Refleksiv-yaradıcı | 0 | 42 | 0 | 12 |

Cədvəl 3.4-dən göründüyü kimi, eksperimental və kontrol qruplarda gələcək mütəxəssislərin-müəllim-psixoloqların peşə hazırlığının göstəricilərinin dinamikasının müqayisəli təhlili verilmişdir. Tədqiqatda ibtidai səviyyədə abituriyentlərin peşə hazırlığının qiymətləndirilməsi "diaqnostikaya giriş" kimi müəyyən edilmişdir. Şəxsi-peşə inkişafı ilə bağlı keçirilən monitorinqin birinci mərhələsinin nəticələri abituriyentlərin həm fərdi, həm də qrup xüsusiyyətlərini qeydə almağa imkan vermişdir. Abituriyentlərin sırasında ADPU-nun pedaqogika və psixologiya fakültəsinə daxil olan tələbə psixoloqların 34% təlimə yüksək motivasiyalı hazırlıqları və şəxsi inkişafa yönəldilmiş göstəriciləri ilə; 60% isə təlimə münasibətdə orta motivasiyalı hazırlıq səviyyəsi, 6% isə aşağı səviyyə ilə fərqlənmişlər.

M.Orlovun "Uğura tələbat sorğusu"nun köməyi ilə sınanılan tələbələrdə uğura tələbat səviyyəsi tədqiq edilmişdir. I kursda yüksək hazırlıq səviyyəsi olan tələbələrin 16%-də uğura tələbatın orta səviyyəsi 12%; orta hazırlıq səviyyəsi olan tələbələrin 30%-də uğura tələbatın orta səviyyəsi 24%; aşağı hazırlıq səviyyəsi olan tələbələrin 41%-də uğura tələbatın orta səviyyəsi 32% qeydə alınmışdır. Mənfi hazırlıq səviyyəsi olan tələbələrin 13%-də uğura tələbatın orta səviyyəsi 12% olması aşkarlanmışdır.

IV kursda yüksək hazırlıq səviyyəsi olan tələbələrin 18%-də uğura tələbatın orta səviyyəsi 14%; orta hazırlıq səviyyəsi olan tələbələrin 38%-də uğura tələbatın orta səviyyəsi 27%; aşağı hazırlıq səviyyəsi olan tələbələrin 40%-də uğura tələbatın orta səviyyəsi 35% qeydə alınmışdır. Mənfi hazırlıq səviyyəsi olan tələbələrin 4%-də uğura tələbatın orta səviyyəsi 3% qeydə alınmışdır.

I kursda yüksək hazırlıq səviyyəsi olan tələbələrin 16%-də uğura tələbatın aşağı səviyyəsi və orta hazırlıq səviyyəsi olan tələbələrin 30%-də uğura tələbatın aşağı səviyyəsi qeydə alınmamışdır. Aşağı hazırlıq səviyyəsi olan tələbələrin 41%-də uğura tələbatın aşağı səviyyəsi 4%, mənfi hazırlıq səviyyəsi olan tələbələrin 13%-də uğura tələbatın aşağı səviyyəsi 1% qeydə alınmışdır. IV kursda yüksək hazırlıq səviyyəsi olan tələbələrin 18%-də uğura tələbatın aşağı səviyyəsi və orta hazırlıq səviyyəsi olan tələbələrin 38%-də uğura tələbatın aşağı səviyyəsi qeydə alınmamışdır. Aşağı hazırlıq səviyyəsi olan tələbələrin 40%-də uğura tələbatın aşağı səviyyəsi 2%, mənfi hazırlıq səviyyəsi olan tələbələrin 4%-də uğura tələbatın aşağı səviyyəsi 1%, aşağı hazırlıq səviyyəli sınanılanlarda da uğura tələbat yüksək səviyyəlilər kimi qeydə alınmışdır. Uğura tələbatın aşağı səviyyəsində qətiyyətsizlik, uğur əldə etməyə inamsızlıq, məqsədə çatmaqda inadkarlğın olmaması

halları müşahidə olunmuşdur. Uğura tələbatın səviyyəsi IV kursda əhəmiyyətsiz dərəcədə dəyişilmişdir. Statistik işləmələr göstərdi ki, sınanılanların müsbət və mənfi nəticələri $p \leq 0,005$ səviyyədə bir-birindən əhəmiyyətli dərəcədə fərqlidir. Müsbət hazırlıqlı sınanılanlar mənfi hazırlıqlı sınanılanlardan fərqli olaraq uğura tələbatda yüksək nəticələr əldə etmişlər. Bu onu göstərir ki, müsbət hazırlıqlı tələbələr nail olduqları səviyyədə dayanmır, daha mürəkkəb məqsədə çatmağa cəhd göstərirlər. Peşə fəaliyyətinə hazırlığı olmayan tələbələr isə əldə etdikləri nəticələri artırmağa cəhd göstərmir və nail olduqları ilə kifayətlənirlər. Bundan əlavə, I və IV kurslarda aparılmış eksperimentlərin statistik təhlili və uğura tələbat səviyyəsinin tədqiqi göstərdi ki, onlar arasında əhəmiyyətli fərqlər qeydə alınmamışdır.

Apardığımız tədqiqat aşağıdakı **nəticələrə** gəlməyə imkan verir:

- Pedaqoji fəaliyyətin səmərəliliyinin aşağı və ya yuxarı səviyyədə təzahürünün müəllimin peşə fəaliyyətinə hazırlıq səviyyəsindən asılılığı aşkar edilmişdir. Pedaqoji fəaliyyətin səmərəliliyinin müəllimin peşə motivasiyasının strukturundan və gücündən asılılığı şübhə doğurmur. Müəllim hazırlığında onun peşə motivasiyasının xüsusiyyətlərinin nəzərə alınması və tələbə şəxsiyyətinin özünügerçəkləşdirməsinə şərait yaradılması zəruridir.
- Psixoloji müşahidə və sorğular nəticəsində müəyyən edilmişdir ki, kommunikativ komponent müəllim və müəllim-psixoloqlar üçün vacib keyfiyyətlərdəndir. Tələbələr arasında apardığımız tədqiqat və ondan alınan nəticələrin təhlili bizə kommunikativ komponentlərin inkişaf səviyyəsini müəyyən etməyə imkan vermişdir.
- Tərəfimizdən ayrılmış qruplarda sınanılanların empirik materiallarının müqayisəli təhlili nəticəsində məlum oldu ki, gələcək müəllim-psixoloqların peşəyə hazırlığı dinamik xarakter daşıyır. Bir hazırlıq səviyyəsindən digərinə keçid dinamikası onun komponentləri arasındakı daxili balansla müəyyən olunur ki, mürəkkəblik dərəcəsindən və məzmunundan asılı olaraq onlar təlim və peşə vəzifələrinin səmərəli həllini təmin edir. Tədqiqatda rastlaşdığımız mühüm psixoloji çətinliklər tələbə-psixoloqların təlimin müəyyən mərhələsində aldıqları nəzəri bilikləri və sadə əməliyyatları peşə şəraitində tətbiq edə bilməmələri, tədqiqat fəaliyyətində sadə praktik təcrübə elementlərindən istifadə edə bilməmələridir.
- IV kursda tələbə psixoloqların peşəyə hazırlıq komponentləri bəzi balanslaşdırmalara gətirib çıxarmışdır. Təlim prosesinin bu mərhələsində də ekspertlər tərəfindən refleksiv-yaradıcı komponentlərin inkişaf səviyyəsində aşağı göstəricilər qeydə alınmışdır. Hesab edirik ki, ali təhsil müəssisələrində təlim prosesində tələbələrin peşə hazırlığı pozitiv keyfiyyət və kəmiyyət dəyişikliklərinə məruz qalır, həm də bir səviyyədən digərinə keçid dinami-

kasında əks olunur (I kursda bələdləşmə səviyyəsindən IV kursun refleksiv yaradıcı səviyyəsinə qədər). Müəllim-psixoloq peşəsinə psixoloji hazırlıqda professional təfəkkürün formalaşmasına diqqət artırılmalıdır. Tələbə-psixoloqlara məntiqi təfəkkürün qanunları və formaları aşılanmalı, onlara problemli situasiyalardan baş açmağı, tədqiqat xarakterli məsələlərə düzgün yanaşmağı, onları həll etməyi öyrətmək vacibdir.

- Peşə hazırlığının aşağı səviyyəsi həmişə nəzəri hazırlığın zəif olmasının nəticəsi deyil, halbuki bu hazırlıq, yüksək səviyyədə olur. Peşəyə hazırlığının aşağı səviyyədə olması qazanılmış nəzəri biliklərin real praktik fəaliyyətdə tətbiq olunmaması, habelə mütəxəssislərin fərdi peşə situasiyasında peşə vəzifələrinin gerçəkləşməsi ilə bağlı şəxsi proqramın hazırlanması vərdişinin olmamasının nəticəsidir. Peşəyə hazırlığın aşağı səviyyəsi problemi təlim mərhələsində mütəxəssis tərəfindən zəruri olaraq həll edilməlidir. Odur ki, diqqət yaradıcı peşə bacarıqlarının formalaşmasına yönəldilməlidir.

- Yaradıcı bacarıqların inkişafı kompleks vəzifə olub, yaradıcı təfəkkürün və kreativliyin inkişafını, habelə yaradıcı fəaliyyətdə motivasiyanı və şəxsiyyətin xassələrini əhatə edir. Təlim prosesində gələcək mütəxəssisin peşəyə hazırlığının formalaşmasında onun subyektiv mövqeyinin inkişafı, peşə özünüdərki, peşə dəyərləri, motivləri və peşə mədəniyyəti dominantlıq təşkil edir.

- Tələbə psixoloqlarla fərdi iş modelinin hazırlanması üzrə eksperimental işin aparılması göstərdi ki, gələcək mütəxəssislərin tələbli peşə komponentlərinin yaranması onların peşə texnologiyalarına yiyələnməsi və səriştəli peşəkarlığının formalaşmasıdır.

- Yaradıcı bacarıqların formalaşmasının ən effektiv texnologiyalarından biri kimi problemli təlim texnologiyalarından istifadə edilməlidir. Çünki problemli təlim metodları tələbə-psixoloqların idrak fəaliyyətinin və müstəqil işləmək vərdişlərinin formalaşmasına yaradıcılıq qabiliyyətlərini inkişafına əhəmiyyətli təsir göstərir.

- Ekspert qiymətlərin nəticələri göstərdi ki, IV kurs tələbə psixoloqlarda aktivlik, biliklərin səviyyəsi, əlaqə yaratmaq bacarığı, uşaqlarla işləməyə cəhd, təşəbbüskarlıq, inadkarlıq və öz hərəkətlərinə inam hissi əhəmiyyətli olmayan dərəcədə dəyişir. Amma pedaqoji təcrübəyə hazırlıq sistemi, onun təşkili və aparılması kommunikativ, həmçinin təşkilatçılıq bacarıqlarının, aktivliyin və biliklərin səviyyəsinin daha da yüksəldilməsini təmin edir.

Sınanılanlardan alınan cavablar bir daha təsdiq etdi ki, "müəllim-psixoloq" ixtisasını seçənlər üçün humanitar istiqamətdə maraqlar üstünlük təşkil edir. Bununla yanaşı, ixtisasa davamlı maraq hələ o qədər də formalaşmamışdır. Ali təhsil müəssisələrinə daxil olanlarda peşə sahəsinə dair təsəvvürlər kifayət qədər diffuz və ya dağınıqdır. Onlarda gələcəkdə nə

ilə məşğul olmaları barədə dəqiq təsəvvürlər formalaşmamışdır. Bu da onu göstərir ki, peşə fəaliyyətinə psixoloji hazırlığın formalaşması peşə motivasiyasının xarakterindən çox asılıdır.

- Apardığımız psixoloji müşahidələrin təhlili göstərdi ki, tələbələrin idrak fəallığının inkişafında müəllim-tələbə əməkdaşlığı mühüm rol oynayır. Lakin təəssüf hissi ilə qeyd etmək lazımdır ki, bəzi kolleclərdə müəllim-tələbə münasibətlərinin xarakteri günün tələbləri səviyyəsində deyil və bu tələbələrin idrak fəallığını formalaşmasına öz mənfi təsirini göstərir.

- Eksperimentin nəticəsi göstərdi ki, müəllim-tələbə əməkdaşlığı tələbələrin yaradıcılıq imkanlarını daha da genişləndirir. Müasir şəraitdə müəllim-tələbə əməkdaşlığında demokratik iş üslubuna üstünlük verilərsə, tələbələrin idrakının inkişaf səviyyəsini artırmaq və təlim prosesində yüksək nəticələr əldə etmək mümkündür. Çünki bu zaman müəllimlər tələbələrin daxili aləminə xüsusi diqqət yetirir, onların rəyini öyrənir, ideyalarından bəhrələnir, hörmət hissini tələbkarlıqla üzvi surətdə əlaqələndirirlər. Pedaqoji fəaliyyətin müvəffəqiyyətliliyi isə gələcək müəllimin ona hazırlıq səviyyəsi ilə müəyyən olunur.

Müəllim peşəsinə hazırlığın yüksək səviyyəsi eyni zamanda peşə hazırlığının yüksək dərəcəsi, gələcək müəllimin seçdiyi peşəyə davamlı marağı, habelə öz ixtisası üzrə işləmək arzusu ilə xarakterizə olunur.

Dissertasiyanın əsas müddəaları müəllifin çap edilmiş aşağıdakı **məqalə və tezislərində** öz əksini tapmışdır:

1. Müəllim-şagird münasibətlərinin psixoloji xüsusiyyətləri // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, Bakı, 2008, № 2, s.402-407

2. Müasir şəraitdə müəllim-şagird münasibətlərinin öyrənilməsi yolları // Psixologiya jurnalı, Bakı ,2008, № 2, s.106-112

3.Yeniləşmə şəraitimdə müəllim-şagird aspektində fəal təlimin psixoloji əhəmiyyəti // Azərbaycan Müəllimlər İnstitunun Xəbərləri, Bakı, 2008, № 3, s. 49-56

4.Müəllim fəaliyyətinin ümumiləşdirilmiş psixoloji modelləri və gənc müəllimlərin peşəkarlığının inkişafı prosesində onun reallaşdırılması xüsusiyyətləri / Gənc tədqiqatçılar və doktorantların XV Respublika elmi konfransı. Bakı: 2011, s.353-355

5. Müəllim hazırlığı təhsildə prioritet sahə kimi / Müəllim hazırlığının müasir problemləri.Beynəlxalq Elmi konfransın materialları.Bakı: 2011, s.210-212

6. Tədrisin keyfiyyətini yüksəldən amillər / Azrəbaycan Respublikasının Dövlət Müstəqilliyinin bərpasının 20-ci ildönümünə həsr olunmuş "Müasir şəraitdə ümumtəhsil məktəblərində tədrisin keyfiyyətini yüksəltmək yolları" mövzusunda II respublika elmi-metodiki konfransının materialları. Bakı:

2011, s.56-58

7. Müəllim hazırlığı prosesində peşə keyfiyyətinə verilən psixoloji tələblər/ Təhsil sistemində gənc nəslin təlim-tərbiyəsi üzrə işin təşkili və onun yaxşılaşdırılması istiqamətləri" mövzusunda respublika elmi konfransının materialları. Bakı: 2012, s.75-76

8.Müəllim peşəsinə hazırlığın inkişaf səviyyələri / Beynəlxalq Elmi konfransının materialları. Bakı: 2012, s.231-235

9.Gələcək müəllim psixoloqların peşə fəaliyyətinə hazırlıgının strukturunda yaradıcı bacarıqların aktivləşdirilməsi // Psixologiya jurnalı, Bakı, 2012, №4 , s.110-117

10. Müasir şəraitdə müəllim hazırlığının psixoloji xüsusiyyətləri / "Təhsil sistemində monitorinq və qiymətləndirmənin yeri". Respublika elmi-praktik konfransının materialları. Bakı: 2012, s.177-180

11. Peşəyə hazırlıq anlayışının psixoloji mahiyyəti və onun tədqiqi vəziyyəti // Azrəbaycan Dövlət Pedaqoji Universitetin Xəbərləri, Bakı, 2013, № 4, s. 309-312

12.Психологическая характеристика педагогической деятельности // Вектор Науки Толяттинского Государственного Университета, Толятти, 2013, № 1, с.49-51

13. Peşə fəaliyyətinə hazırlığın formalaşdırılmasının yolları /Müəllim hazırlıgının müasir problemləri-texnologiya,təhsil və inkişaf. Azərbaycan Müəllimlər Institutunun III Beynəlxalq Elmi konfransının materialları. Bakı: 2014, s.37-39

**Вердиева Чимназ Гафар гызы**

# ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ ПОДГОТОВКИ К ПРОФЕССИИ УЧИТЕЛЯ В СОВРЕМЕННЫХ УСЛОВИЯХ

## РЕЗЮМЕ

Диссертационная работа посвящена одной из актуальных проблем психологии – изучению психологических особенностей подготовки к профессии учителя в современных условиях. Изменение требований, предъявляемых к психологической подготовке учителя, отсутствие четких критериев модели учителя нового типа и недостаточная изученность проблемы еще раз актуализируют данную тему.

Диссертация состоит из введения, трех глав, заключения, списка использованной литературы и приложений.

Во **Введении** обосновываются актуальность темы, цели и задачи, объект, предмет, научная новизна, научное и практическое значение исследования, комментируются основные положения, вынесенные на защиту.

Глава I диссертации называется **«Проблема подготовки к профессии учителя и основные направления ее исследования»** и состоит из трех параграфов. В этой главе исследуются психологическая характеристика педагогической деятельности, вопросы профессиональной подготовки и состояние ее изученности, уровни развития подготовки учителей к профессиональной деятельности. Здесь на основе проведенных исследований также анализируются и систематизируются психологические проблемы, способствующие достижению успеха в профессиональной подготовке личности, обладающей профессиональными обязанностями, опытом, знаниями и личными психологическими качествами.

Глава II диссертации называется **«Психологические требования, предъявляемые к учителю в процессе подготовки к профессии»**. В данной главе последовательно характеризуются пять взаимосвязанных друг с другом этапов в системе подготовки учителя, исследуются активизация творческих способностей будущих учителей-психологов в структуре их подготовки к профессиональной деятель-

ности, а также психологические особенности отношений педагог-студент.

Глава III диссертации называется **«Экспериментальное исследование проблемы подготовки к профессии учителя»**. В этой главе исследуются способы формирования подготовки к педагогической деятельности и ее экспериментальное изучение. Проявление эффективности педагогической деятельности на низком или высоком уровне определяет направления профессиональной деятельности педагога. Исследование показало, что эффективность педагогической деятельности больше всего зависит от структуры профессиональной мотивации учителя.

В заключительной части диссертации обобщаются научные выводы исследования. В результате исследования было выявлено, что профессиональная подготовка будущих учителей-психологов носит динамический характер. Динамика перехода от одного уровня подготовки к другому определяется внутренним балансом ее компонентов, которые, в зависимости от степени сложности и содержания, обеспечивают эффективное решение учебных и профессиональных обязанностей.

**Chimnaz Gafar gizi Verdiyeva**

# PSYCHOLOGICAL FEATURES OF PREPARATION FOR THE TRADE OF THE TEACHER IN MODERNITY

## SUMMARY

The dissertational work is devoted to studying of psychological features of preparation for a trade of the teacher in modernity as one of actual problems of psychology. Change of the requirements to psychological preparation of the teacher, absence of accurate criteria of the new type teacher's model and an insufficient of scrutiny level of the given theme made it actualized again.

The dissertation consists of the introduction, three chapters, the conclusion, the list of the used literature and appendices.

In **Introduction** are proved the urgency of a theme, the purpose and a problem, object, a subject, scientific novelty, scientific and practical value of research, are made comments the substantive provisions which have been taken out on protection.

The chapter I of dissertation is called **«The problem of preparation for a trade of the teacher and the basic directions of its research»** and consists of three paragraphs. In this chapter are investigated the psychological characteristic of pedagogical activity, questions of vocational training and a condition of its scrutiny level, levels of development of preparation of teachers to professional work. There on the basis of the spent researches are analyzed and systematized the psychological problems promoting achievement of success in vocational training of the person, and also possessing professional duties, experience, knowledge and personal psychological qualities.

The chapter II of dissertation is called **«The psychological requirements to the teacher in the course of preparation for a trade»**. In the given chapter are consistently characterized the five stages interconnected with each other in system of preparation of the teacher, are investigated activization of creative abilities of the future teachers-psychologists in structure of their preparation for professional work, and psychological features of the teacher-student relations.

The chapter of III dissertation is called **«The experimental research of a problem of preparation for a trade of the teacher»**. In this chapter are investigated the formation ways of preparation teachers for pedagogical activity and its experimental studying. Display of efficiency of pedagogical activity at low or high level defines directions of professional work of the teacher. Research has shown, that efficiency of pedagogical activity most of all depends on structure of professional motivation of the teacher.